# DÜNYANIN ACISI, ŞİRİNİ

## *Məlahət Soltanqızının “Dünya” poeması üzərində düşüncələr*

Ümumiyyətlə, dünya insan evidir - deyirik. Bu evin aqilləri, müdrikləri insanı dünyanın əşrəfi adlandırıb. Həqiqətən, əgər insan olmasaydı, bir sözlə, dünyada insansız həyat davam etsəydi belə, onun gözəlliyinin bir dəyəri olmazdı. Çünki dəyər insan düşüncəsinin məhsuludur. İnsan düşüncəsi isə dəyəri özünə və yaşadığı mühitə münasibətdə müəyyənləşdirir.

Dünyanın ən görkəmli müdrikləri həyat haqqında düşüncələrini bir çox hallarda elə dünya haqqında düşüncələri ilə eyniləşdirirlər. Şairlərin yaradıcılığında dünya bəzən qəddar, sərt, insanı əzən bir obraz kimi təqdim olunur. Amma, əlbəttə, bunu bütün şairlərə aid etmək olmaz. Elə şairlər də var ki, dünyanı tərənnüm ediblər, dünyanı insanlara yaşarı tərəfləri ilə tanıtmağa çalışıblar. Səməd Vurğunun məşhur “Dünya” şeirini yada salmaq kifayətdir ki, dünyanın nə qədər ecazkar tərəfləri olduğunu yaddaşımızın güzgüsünə gətirək. Doğrudur, həmin şeirdə böyük şair *“Nə ömrə acıyır, nə yaşa dünya”* deyir. Ancaq yenə də dünyaya nifrət təlqin etmir. Sanki insanlara anlatmaq istəyir ki, dünyanı dərk etmək, həyatı başa düşmək, dünyanın insandan nə istədiyini anlamaq daha vacibdir. Əgər insan bilsə ki, dünya ondan xeyirdən başqa heç nə istəmir, onda dünya haqqında heç vaxt bədbin əhvalla düşünməz. Bir sözlə, dünyada baş verənlərə görə dünyanı ittiham etməz.

Məlahət Soltanqızı maraqlı poetik düşüncələrlə qələmə aldığı *“Dünya”* poemasında dünya və insan münasibətlərinə işıq salmaq istəyir. Əlbəttə, bu o qədər də asan deyil. Dünyanın çox böyük filosofları (məsələn, İmmanuel Kant) dünyanı dərk olunmaz hesab edirdi. Materialist fəlsəfə isə dünyanın dərk olunanlığı haqqında təlimlərlə ardıcıl çıxış edir. Zənnimizcə, əgər dünyanın dərkolunanlığı anlamı səhv olsaydı, heç şairlər də bu məsələyə bu qədər vaxt sərf etməzdilər. Şübhəsiz, *“Dünya”* poemasının müəllifi Məlahət Soltanqızı da öz düşüncələrində dünyanın görünən və görünməyən tərəflərinə sözlə işıq yolu çəkir. Və bununla insanlarla dünya arasında körpü qurmağa çalışır.

İnsan və dünya münasibətləri bir çox hallarda ziddiyyətlidir. Yəni, həyatı dərk edənlər, dünyanın gəldi-gedərindən baş çıxaranlar bütün dəyişilmələri qanunauyğun hesab edir və buna təmkinlə yanaşırlar. Müəllif də öz peomasında göstərməyə çalışır ki, çoxları cahangirlik xülyası ilə dünyanı qamarlamaq, öz cənginə almaq, özününküləşdirmək istəyir. Amma vaxt gəlib zaman çatanda o, dünya ilə vidalaşmalı olur. Bəlkə də son anlarında insanlar dünyada yaxşı bir iz buraxmaq əvəzinə şər xisləti qoyub getdiklərinə görə peşmançılıq çəkirlər. Bu mənada sanki müəllif bizə təlqin edir ki, Neronun, Napoleonun, Hitlerin, Stalinin, Pol Potun və İyenk Sarinin antiinsani əməlləri bu gün necə nifrətlə xatırlanır. İnsanlar əgər həyata tox, vicdanlı yanaşmanı əsas tutsaydılar, onda milyonlarla insanın da qanı havayı axmazdı. Elə dünyaya dərd-bəla gətirənlərin də adları yəqin ki, nifrətlə xatırlanmazdı. Müəllif insan-dünya münasibətlərinə çox duyğulu misralar həsr edir:

Dünya, səndən sənə şikayətim var...
Dünya, nədi bu gördüklərim...
Cənnətə bənzətdilər səni...
İnsanların dini, imanı oldun sən
Səni görənlər dinlərini,
imanlarını unutdular.
Sənin qoynunu əziz bilib,
Özlərini oda atdılar.
Sevdilər, sevildilər,
Sevginin verdiyi duyğular, xəyallar,
İnsanı haldan-hala salar -
Gah göyün yeddinci qatına qaldırar
Gah qanadlarını qırıb qoparar
Gah həsrəti yolunda bitirər
İnsan, sən olanları anlamayacaqsan.
Elə hey özünü danlayacaqsan.
Dünyanın üzünə vurduğu sərt sillə,
Enib qalxdığın hər pillə
Həyatın bir sınağı
Həyatın verdiyi bir dərs.

Müəllif doğru deyir, dünyaya dərdbəla gətirənlər, əslində həm də özlərinə dərd-bəla gətirmiş olurlar. Onlar dünyanı oda atmaqla, dünyanı od cəngində yandırmaq istəkləri ilə özlərini də insanlığın əbədi lənətinin ünvanına çeviriblər. Doğrudur, müəllif Vüsal və Həsrət obrazları ilə maraqlı tərəfləri də qarşılaşdırır və müəyyən mənada Vüsal və Həsrətin səbəbkarı kimi elə dünyanı göstərir. Sanki biz burada dünyanın Allah gücündə olduğuna da iddia hiss edirik.

Müəllif həssas məqamlara toxunur. Yada salır ki, əgər insanlar həyatı sevgi ilə yaşamaq istəsəydilər və sevdiklərinin həyatına gözəllik bəxş edərdilər. Müəllifin mövqeyi tiranların mövqeyindən fərqli olaraq insani mahiyyət daşıyır. O, öz humanizmi ilə dünyanın sinəsinə dağ çəkmiş olan qəddarları ittiham edir. Çox yaxşı bir qənaətə gəlir ki, Allah timsalında gördüyü dünya yaxşı əməlinə görə insanı mükafatsız buraxmır; İstər rəğbət olsun, istər də cəza.

Müəllif yenə də ritorik suallardan istifadə edir. Yeri gəldikcə sanki dünyaya üz tutub ondan sual edir. Sualların isə mahiyyəti bundan ibarətdir. Axı bu yer üzündə, yəni dünyada şər nə qədər davam edəcək? Şər haracan yaşayacaq və insanlara bəla gətirəcək: *“Dünya, nədir bu gördüklərim... Haqqın-ədalətin qapısını nə vaxt çalacaqsan? Yetimin, yesirin qayğısına nə vaxt qalacaqsan?Nə vaxt hər kəs layiq olduğu yerdə oturacaq? Nə vaxt nadanlar öz kimliyini qanacaq? Dünya, səni qınamağım əbəsmi? İnsanların bu dünyaya gəlişi bir həvəsmi? İnsanların yanan nəfəsi, Dözümün, səbrin tükənməsi İnsanların ölümünü gözə alıb intihara cəhd etməsi, Əzabın, zülmün bitməməsi... Dünya, bitmədi əzablar... Bitmədi, aclıq... bitmədi səfalət... Bitmədi yalanlar... Bitmədi qovğalar... Bitmədi savaşlar... Nədən insanlar ağıllanmadılar? Tökülən qanlar, alınan canlar Göz yaşları, anaların həsrət dolu baxışları Yetmədimi?Yetmədimi kütləvi qırğınlar Bu qədər ölümcül xəstəliklər Bu qədər təbii fəlakətlər Doymadı insanın gözü dünya varından Doymadı, çünki insan ölən gününədək Bir gün öləcəyini düşünmədi Budurmu həyat? Sərvətin, pulun dəyəri bu qədər böyükmü? Dərman-dava üzündən insanlar vaxtsız ölümlə barışmalımı? Sənə bəxş olunan ömrü yoxsulluq üzündən vaxtsız bitirməkmi?Sənə doğma olan insanlardan zorla qoparılmaqmı? Pulun dəyəri bu qədər böyükmü? Kimin pulu varsa omu yaşamalı? Bir yanda zinətlərə qərq olan həyat... Bir yanda zülmətlərə qərq olan həyat... Barışmaz ürəklər bu ədalətsiz dünyayla Əsrlərdir haqqın qələbəsini gözləyən fəqirlər Bu vəfasız dünya haqqında çox az şey bilirlər İnsanların çəkdiyi hər zülm, aldığı hər zərbə Dünyanın sərt üzünə çırpılan sillə Dünyanın bağrına basılan paslı güllə”.* Müəllifin düşüncəsinə görə dünyanı əzab evinə çevirən səbəblər var. Bunlar insanların yalanlarıdır. Yalanların isə törəməsi çoxdur. Tamah var, qəsbkarlıq var özgəsinin torpaqlarına göz dikmək var. Yalançı şöhrət üçün haracan desən, insanlığın başına bəla gətirməklər var. Müəllifi çox maraqlandırır ki, min illər ərzində xeyir və şər çarpışır, yenə də xeyirin tam qələbəsi başa çatmır. Elə ona görə də sual edir ki, insanlar nə üçün olub-keçənlərdən nəticə çıxara bilmir. Əgər insanlar keçmişdən düzgün nəticə çıxarsaydılar, onda dünya insanlar üçün bəla yerinə çevrilməzdi.

İnsan öz övladını dünyaya gətirir, onu min-bir müsibətlə böyüdür, boyabaşa çatdırır. Amma hansısa bir başsız başçının tamahları ucbatından onlar müharibə meydanlarında həlak olurlar. Əlbəttə, son nəticədə Qarabağda olduğu kimi nəhayət ki, xeyir qalib gələ bilir. Amma, əlbəttə, insanlığa nə qədər zərbələr vurulur. İnsanın yaratdığı şəhərlər, kəndlər dağıdılır.

Müəllifin düşüncəsinə görə nə qədər pul ilə, maddiyyatla mənəvi dəyər qarşılaşanda pul öz gücünü diktə edir, demək, dünyada hələ haqsızlıqlar davam edəcək. Unutmaq lazım deyil ki, nə qədər ki, zor öz həqiqətini önə çəkir, onda həyat şər xisləti insanların əlindən bitib-tükənməyən yaralar alacaq. Müəllif “sillə” və “güllə” sözlərini qarşılaşdırır. Sanki bununla həyatın nəyin sayəsində yaşamalı olduğuna diqqəti çəkir. Axı dünyanın 7 möcüzəsini də yaradan insandır. Semiramidanın asma bağlarını, Misir ehramlarını quranlar da insanlardır.

Elə Xudafərin körpülərini, Qız Qalasını, lap elə Şuşa şəhərini - bu möcüzələri yaradan insanların şər əməl törədəcəklərinə necə inanmaq olar?! Ancaq erməni caniləri əgər bacarsaydılar, Azərbaycan mənəviyyatının rəmzi olan bu abidələri yer üzündən silərdilər.

Müəllif sanki dünyaya üz tutur. İnsanlara həqiqəti deməyi tələb edir. Axı insanların doğrunu, düzgünü bilmək haqqı var. İnsanların yalanlarla aldadılmasının özünü də müəllif cinayət hesab edir: *“Uyutma bizi, dünya... Sənin çaldığın laylalara alışdıq biz Sənin danışdığın nağıllara aldandıq biz, Uyutma bizi, dünya Yamandı haqqın gözünə baxa-baxa, yalan danışmaq Yamandı ümidlərlə qidalanıb, sonda ac qalmaq Yamandı gecə-gündüz çalışıb istədiyin həyata qovuşmamaqRuhun əzabı yamandı Bunu sərvət sahibləri qanmadı. Uyutma bizi, dünya Kimə inanaq, kimə sığınaq Kimin qapısını döyək Əlləri qabardan bərkimiş ata övladlarının yanında günahkar, Haqqı-ədaləti harda axtaraq Mübarizlərin qollarında qandal, Danışanlar susduruldular Uyutma bizi, dünya İşin-gücün əlindən imanımızdan qaldıq İşingücün əlindən namazımızdan qaldıq, Zamanmı günahkar, bizmi günahkar, Analar övladlarını evə əsir edib, iş dalınca qaçır Övladlar özbaşına yetişir Sərvətin əlində əsir olanlar İtinə kolbasa yedizdirir İllərlə yuxusuz gecələrin əzabına dözüb Alim adını alanlar,- Nimdaş geyimdə gəzir. Ziyalının cibində siçanlar oynayır Ziyalı sənətini atıb dolanmağa çarə axtarır...”.* Müəllifin düşüncələri əsasında xəyalımızla dünyanın bir çox ölkələrinə səyahət edək. Afrika ölkələrində, Hindistan, İran kimi məmləkətlərdə nələrin baş verdiyini gözlərimizin önünə gətirək. İnsanların sudan, heç olmasa, gündə bir dəfə yeməli olduqları qidadan məhrum olduqlarını düşünmək dəhşətdir.

İranda milyonlarla azərbaycanlının təhsil haqqı yoxdur. Haqqını, hüququnu tələb edənlər isə güllə ilə, qurşunla qarşılanır. Zamanın elmlə qanadlandığı, həyatın elmi biliklərlə nəfəs aldığı bir dövrdə İran insanları ilkin orta əsrlərə qayıtmağa sövq edir. Din elmi sanki boğmağa yönəlikdir. Elmin gətirdiyi nailiyyətlərin inkar olunduğu ölkələrdə hansı haqdan, ədalətdən danışmaq olar.

Məlahət Soltanqızı *“Dünya”* poeması ilə yeni dünya düzənindəki insanların taleyi haqqında fikirlərini bölüşür. Bir sözlə, ziyalı xəbərdarlığı, şair missiyası öz məsuliyyətini dərk edir: *“Uyutma bizi, dünya Görə-görə gəldik bu haqsızlığı Barışdıqmı taleyimizlə Barışmadıq İçimiz-içimizi yedi Sözümüzü deməyə adam axtardıq Sözümüzü eşitməyə adam tapmadıq. Bu boyda dünyanın içində canımızı qoymağa yer tapmadıq Uyutma bizi, dünya Bir evin işığı o biri evə düşmür Mərhəmət hissi yoxdur daha, qəlbləri silkələsin.Burnumuzu ovma, dünya Zülümdən doydunmu, dünya Qocalar qapı arxasında köməksiz qalıb Cavanlar evlənə bilmir, şirin xəyala dalıb İstedadlılar bu gerçəklərdən sozalıb Uşaqlar ayaqqabı dərdindən məktəbdən qalır Uşağını doyunca yedirdə bilməyən valideyn Bir qarın ac, bir qarın tox yaşasa da, Ümidi tək Allaha qalıb Anaların baxışlarında xəcalət, Övladların baxışlarında acı bir həqiqət Gülümsəmək istəsə də, dodaqlarında Donub qalır, xəyallarında qurub yaratdığı Dünya haqqında uydurulan acı bir həqiqət Uyutma bizi, dünya Doyduq yalanlarından Uyutma bizi, dünya Acı gerçəkləri sərdin önümüzə”.* Müəllif sanki həyatın dərinliklərinə doğru irəliləyir. Qocalar evində, yaxud hansısa bir küncdə-bucaqda tənha ömür yaşayan insanların acı taleyini yada salır. Bombardman nəticəsində həlak olanların, dünyadan fidan həyatı ilə vidalaşanların, bir sözlə, körpələrin axır ki, insanların nəyin sayəsində əzab yükü daşıdıqlarını, dərd çəkdiklərini təkrar-təkrar sözünə gətirir.

Məlahət Soltanqızı dünya mövzusunda yazılmış böyük epopeyanın sanki bir fəslini də öz dövrünün tələbləri ilə təzədən qələmə alıb. Bununla bəlkə hansısa bir şər əməlin qarşısını kəsə biləcəyini düşünüb.

Hər halda Məlahət Soltanqızının *“Dünya”* poeması Xeyirin tərəfində duran, insanlığı qoruyan insanlara mənəvi istinadgah olmaq məqsədi ilə yazılıb.

Əsərdən belə bir nəticə çıxır: Dünyanı yalnız onu sevənlər qoruya bilər.

***(Davamı var)***